AYGUN VEKİLOVA
NECEF NABIYEV

XARİCİ DİL
(bütün ixtisaslar üzrə)

«Elm və təhsil»
Bakı- 2017

Redaktor: **Azelma Hasanova**
Bakı Dövlət Universitetinin Alman-Fransız dilləri rafedrasının dosenti
Fransa səfirliyində Azərbaycanda fransiz dilinin inkişafı üzrə məsul şəxs

Rəyçilər: **Çəmən Babaxanova**
ADU, professor
Rəfiqə İsayeva
ADU, dosent

Korrektor: **Fikrət Həsənov**
Azərbaycan Dövlət İqtisad Universiteti
Baş müəllim

Bu kitab ali məktəblərin ixtisası xarici dil olmayan fakültələrində təhsil alan tələbələr və eləcə də fransız dilini sərbəst öyrənmək istəyən geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

$\frac{4602000000}{N098-2015}$ ***грифли няшр***

© «Elm və təhsil», 2015

“LA MARSEILLAISE”, L’HYMNE NATIONAL DE LA FRANCE

Paroles et musique de **Claude Rouget de Lisle.**

Allons, enfants de la Patrie,
Le jour de gloire est arrivé !
Contre nous de la tyrannie,
L’étendard sanglant est levé,
Entendez-vous dans les campagnes
Mugir ces féroces soldats,
Ils viennent jusque dans vos bras
Égorger vos fils, vos compagnes.

Aux armes, citoyens !
Formez vos bataillons !
Marchons, marchons !
Qu’un sang impur
Abreuve nos sillons !

Amour sacré de la Patrie,
Conduis, soutiens nos bras vengeurs !
Liberté, liberté chérie,
Combats avec tes défenseurs !
Sous nos drapeaux, que la victoire
Accourt à tes mâles accents,
Que tes ennemis expirants
Voient ton triomphe et notre gloire !

L'HYMNE NATIONAL DE LA RÉPUBLIQUE D'AZERBAÏDJAN

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HİMNİ

Musiqi: Üzeyir Hacıbəyov
Söz: Əhməd Cavad

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üç rəngli bayrağınla məsud yaşa!

Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əskər,

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı vətən! Şanlı vətən!
Azərbaycan! Azərbaycan!

GİRİŞ KURSU

Fransız dilinin fonetikası haqqında qısa məlumat

Fransız dilinin əlifbası – Alphabet français

Aa [a]	**Nn [en]**
Bb [be]	**Oo [o]**
Cc [se]	**Pp [pe]**
Dd [de]	**Qq [kü]**
Ee [ö]	**Rr [er]**
Ff [ef]	**Ss [es]**
Gg [je]	**Tt [te]**
Hh [aş]	**Uu [ü]**
İi [i]	**Vv [ve]**
Jj [ji]	**Ww [dublöve]**
Kk [ka]	**Xx [iks]**
Ll [el]	**Yy [iqrek]**
Mm [em]	**Zz [zed]**

Hərflərin oxunuşu
(latın qrafikasına əsasən qurulub.)

Fransız dilində 26 hərf, 35 səs vardır. Bu 26 hərfdən 20-si samit hərf, 6-sı isə sait hərfdir. Sait hərflər bunlardır: **a, o, u, i, e, y.** Samit hərflərdən 7-si sözlərin sonunda oxunmur, həmin samitlər bunlardır: **d, g, p, s, t, x, z.**

1. "Aa" hərfi azərbaycan dilindəki [a] səsi kimi oxunur.

Exemple: un ami – dost
une amie – rəfiqə
un arbre – ağac
une adresse – ünvan

2. "Bb" hərfi azərbaycan dilindəki [b] səsi kimi oxunur.

Exemple: une balle – top
belle – gözəl
un bonbon – konfet

3. "Cc" hərfinin aşağıdakı oxu qaydaları var:

a) **Bu hərf "e, i, y" saitlərindən əvvəl gələrsə Azərbaycan dilindəki [s] səsi kimi oxunur.**

Exemple: ceci – bu, bunu
un cycle – dövr
un cirque – sirk

b) **Bu hərfin aşağısında "ç" (sedil) işarəsi olarsa, Azərbaycan dilindəki [s] səsi kimi oxunar.**

Exemple: une leçon – dərs
garçon – oğlan, ofisiant

c) **Bu hərf sözün sonunda gələrsə, Azərbaycan dilindəki [k] səsi kimi oxunur.**

Exemple: un lac – göl
un sac – çanta
avec – ilə (la, lə)

d) Sözün sonunda burun səsindən sonra oxunmur.

Exemple: un banc – skamya
blanc – ağ

e) Bu hərf "a, o, u" və samitdən əvvəl gələrsə Azərbaycan dilindəki [k] səsi kimi oxunar.

Exemple: camarade – dost, yoldaş
capital – paytaxt
curieux – hər şeylə maraqlanan
une consonne – samit

4. "Dd" hərfi azərbaycan dilindəki [d] səsi kimi oxunur.

Exemple: donner – vermək
dans – da, də, a, ə, ya, yə şəkilçilərini əvəz edən sözünü

Bu hərf sözün sonunda oxunmur.

Exemple: tard – gec
le bord – sahil

5. "Ee" hərfinin aşağıdakı oxunuş qaydaları var:

a) Bu hərf tək hecalı sözlərdə Azərbaycan dilindəki [ö] kimi oxunar.

le, me, te, se, ce, te və s.

Exemple: regarder – baxmaq
relire – yenidən oxumaq

b) Qapalı hecada isə azərbaycan dilindəki [e] səsi kimi oxunur.

Exemple: traverser – keçmək
fermer – örtmək, bağlamaq

c) Bu hərfin üzərində bu üç işarələrdəndən (é, è, ê) biri olarsa, [e] kimi oxunar.

Exemple:un bébé – körpə, çağa
répéter – təkrar etmək
une tête - baş
une fête - bayram
un père - ata
une mère – ana

d) Bu hərf iki və çox hecalı sözlərin sonunda oxunmur.

Exemple: malade – xəstə
un camarade – dost, yoldaş

6. "Ff" hərfi azərbaycan dilindəki [f] səsi kimi oxunur.

Exemple: une famille – ailə
un fou – dəli

7. "Gg" hərfinin aşağıdakı oxu qaydaları var:

a) Bu hərf "e, i, y" saitlərindən əvvəl Azərbaycan dilindəki [j] səsi kimi oxunar.

Exemple: une neige – qar
un girafe – zürafə
la gymanstique – gimnastika

b) Bu hərf qalan hallarda [q] kimi oxunur:

Exemple: la gare – vağzal
grand – böyük

c) Bu hərf sözlərin sonunda oxunmur:

Exemple: le rang – sıra, cərgə
le sang – qan
long – uzun

8. "Hh" hərfi heç vaxt oxunmur, yalnız yazıda işlənir

Exemple: habiter – yaşamaq
un homme – kişi, adam
un cahier – dəftər
habiller – geyindirmək

9. "İi" hərfi azərbaycan dilindəki [i] səsi kimi oxunur.

Exemple: il – o (3-cü şəxsin təki, şəxs əvəzliyi)
un île – ada
immobile – hərəkətsiz

10. "Jj" hərfi azərbaycan dilindəki [j] səsi kimi oxunur.

Exemple:le jus – şirə
jaune – sarı
juste – düz, haqlı

11. "Kk" hərfi azərbaycan dilindəki [k] səsi kimi oxunur.

Exemple: un képi – kepka
un kino – kinofilm
le kiwi – kivi(tropik meyvə)

12. "Ll" hərfi azərbaycan dilindəki [l] səsi kimi oxunur.

Exemple: libre – azad, sərbəst
le lait – süd
large – geniş, enli

13. "Mm" hərfi azərbyacan dilindəki [m] səsi kimi oxunur.

Exemple: maman – ana
mais – lakin
monter – qalxmaq
manger – yemək

14. "Nn" hərfi azərbaycan dilindəki [n] səsi kimi oxunur.

Exemple: la neige – qar
le nez – burun
Nana – qız adı

15. "Oo" hərfi azərbaycan dilindəki[o] səsi kimi oxunur.

Exemple: onze – on bir
oncle – dayı, əmi
une omlette – qayğanaq

16. "Pp" hərfi azərbaycan dilindəki [p] səsi kimi oxunur.

Exemple: papa – ata
la patrie – vətən
un pas – addım
la paix – sülh

Bu hərf sözlərin sonunda oxunmur:

Exemple: beaucoup – çoxlu
un coup – zərbə

17. "Qq" hərfinin aşağıdakı oxu qaydaları var:

a) Azərbaycan dilindəki "klub" sözündəki [k] səsi kimi oxunur:

Exemple: cinq – beş
le coq – xoruz
quand – nə vaxt
quatre – dörd

b) Bu hərf "u" saiti ilə birləşib "qu" hərf birləşməsi olduqda və "e, i" saitlərinin qarşısında işləndikdə Azərbaycan dilindəki, "kahı" sözündəki [k] səsi kimi oxunar.

Exemple: Qui est-ce ? – bu kimdir ?
quitter – tərk etmək
Que – nə ?
Quelle – hansı ?

18. "Rr" hərfi azərbaycan dilindəki [ğ] səsi kimi oxunur.

Exemple: une robe – don, paltar
rire – gülmək
répéter – təkrar etmək

19. "Ss" hərfi azərbaycan dilindəki [s]səsi kimi oxunur.

Exemple: sur – üstündə
sous – altında
la sœur – bacı

Bu hərf sözlərin sonunda oxunmur.

Lis,dis, écris və s.

Müstəsna hallarda "s" oxunur:

le mars – mart ayı
le fils – oğul
l'ours – ayı
le tennis – tenis
le sens – hiss, duyğu
une autobus – avtobus

20. "Tt" hərfi azərbaycan dilindəki [t] səsi kimi oxunur.

Exemple: une tête – baş
une tasse – fincan
un tapis – xalça, xalı
le thé – çay və s.

"Tt"hərfi sözlərin sonunda oxunmur. Məs.:lit,dit, écrit və s.
Aşağıdakı sözlərin sonundakı "t" hərfi oxunur. Məs:

la dot – cehiz
le mat – mat (şahmatda)
net – aydın, təmiz
le test– test

21. "Vv" hərfi azərbaycan dilindəki [v] səsi kimi oxunur.

Exemple: une vache – inək
venir – gəlmək (gəlib çatmaq)
vite – tez, cəld
vert – yaşıl
vieux – qədim, qoca, köhnə

22. "Ww" hərfi azərbaycan dilindəki [v] səsi kimi oxunur.

Exemple: le wagon – vaqon
le week-end – həftə sonu (şənbə, bazar)

23. "Xx" hərfi 2 cürə oxunur:

a) saitdən əvvəl gələrsə "qz"

Exemple: un exemple – nümunə, misal
un exercice – çalışma

a) samitdən əvvəl gələrsə "ks"

Exemple: expliquer – izah etmək
le taxi – taksi
le texte – mətn

Bu hərf sözün sonunda gələrsə oxunmur.
Məs.: heureux
noix
voix

24. “Yy” hərfi azərbaycan dilindəki [i] səsi kimi oxunur.

Exemple: le stylo – qələm
le type – növ, nümunə
le mythe - əfsanə

25. “Zz” hərfi azərbaycan dilindəki [z] səsi kimi oxunur.

Exemple: le zigzag – əyri-üyrü xətt
le zoo – zoopark
le zero – sıfır

Bu hərf sözün sonunda oxunmur.

Le nez-burun

Hərflərin oxunuşuna dair

Əlavə qeydlər

Qeyd 1: Fransız dilində « s » hərfi iki sait arasında, eləcə də sait və lal « H » hərfi ilə başlayan sözdən əvvəl gələrsə « z » səsini verir.

Exemple: une rose – qızılgül
une trahison – xəyanət
une chemise – köynək
une maison – ev

Qeyd 2: « neuf » sayındakı « f » hərfi « ans və heure » sözlərindən əvvəl [v]səsi kimi oxunur.

Exemple: neuf ans – 9 yaş
neuf heures – 9 saat

Qeyd 3: Fransız dilində « p » hərfi « t » hərfinin qarşısında işləndikdə oxunmur.

Exemple: sept – 7
compter – saymaq; hesablamaq
le comptable – hesabdar, mühasib

Qeyd 4 : Fransız dilində qoşa samitlər bir səs kimi oxunur.

Exemple: difficile – çətin
une balle – top
une gomme – pozan
la pomme – alma
donner – vermək
apporter – gətirmək
serrer – sıxmaq
la tasse – fincan
une lettre – 1) məktub; 2) hərf

Qeyd 5 : « i » və « y » hərflərindən sonra sait gələrsə Azərbaycan dilindəki [y] səsi kimi oxunur.

Exemple: une serviette – əl dəsmalı, portfel
le cahier – dəftər
les yeux – gözlər
une assiette – boşqab, nimçə
un avion – təyyarə

Fransız dilində burun saitləri

Fransız dilində 4 burun saiti vardır: /an/, /ən/, /on/, /ön/. Bu sait səsləri almaq üçün aşağıdakı hərf birləşmələrindən istifadə olunur:

an–dans – a, ə, ya, yə; da, də şəkilçi sans sız[4]
[an] am– chambre – otaq;
en– entrer – daxil olmaq; vent – külək;
em– ensemble – birlikdə; sembler – elə gəlmək (görsənmək)
in – fin –son; matin – səhər
im – simple –sadə, imbécile –axmaq, kəmağıl
[ən] ain – pain – çörək; bain – hamam; main - əl
aim – faim - aclıq
ein– éteindre – söndürmək; frein - əyləc (maşında), plein - dolu
on– qeyri–müəyyən əvəzlik; son – onun (özünün)
[on] bon – yaxşı; coton - pambıq
om - sombre – qaranlıq, ombre – kölgə
un - lundi – bazar ertəsi; brun – qəhvəyi
[ön]
um - parfum - ətir

Qeyd: Burun saitlərindən sonra sait gələrsə burun səsi itir, hərflər adi qaydada oxunur.

Məs:

plein /plən/; pleine /plen/
un /ön/ - une /ün/
chacun /şakön/ - chacune /şakün/ və s.
tomber /tonbe/ - tomate /tomat/və ya le roman /lö roman/

Fransız dilində hərf birləşmələri

1. "ai" hərf birləşməsi Azərbaycan dilindəki [e] səsi kimi oxunur.

Exemple: aimer – sevmək, xoşlamaq
le lait – süd
aider – kömək etmək

Fransız dilində çoxsaylı hərf birləşmələri vardır ki, bunların hər biri ya fransız dilində olmayan hərfi, ya da müəyyəm səsi ifadə edir. Məsələn:
2. "ch" = /ş/ la vache – inək
cacher – gizlətmək
la chimie – kimya

3."et" = [e] et = və;
4."est" = [e] est = dır[4]
5. "ei" = [e] neige – qar
beige – açıq qəhvəyi

6. "et", "ez", "er" = [e]le buffet – bufet
parler – danışmaq
parlez! – danışın!
cadet – balaca (yaşca)

7. "eu" və "œu" = [ö] l' heure – saat (vaxt)
le beurre – yağ
le cœur – ürək
la sœur – bacı

8. "au", "eau" = [o] la faute – səhv
l'aurore – dan yeri
le drapeau – bayraq
le tableau – lövhə

9. “il”, “ill” = /y/; [iy] travail – iş
famille – ailə
lakin bəzi sözlərdə olduğu kimi oxunur.
“Lille”, “mille”, “ville”, “tranquille” və s.

10. “ph” = /f/ une phrase – mürəkkəb cümlə; fraza

11. “ien” = [yən] bien – yaxşı; rien – heç nə
mien – mənimki; tien – səninki; sien – onunku

12. “ou” = [u] sous – altında
un coup – zərbə

13. “gn” = [ny] une ligne - xətt, sətir
gagner - qazanmaq, udmaq (oyun)

14. “oi” = [ua] le soir – axşam; moi – mən; toi – sən
“oy” = [ua] un voyage – səyahət
la voyelle - sait

15. “tion” = [syon] une nation – millət, xalq
la récration – tənəffüs

Fransız dilinin fonetikasında iki əsas fonetik hadisə vardır:

Enchaînement (birləşmə)

Müasir fransız dilinin fonetika bəhsində ən mühüm hadisələrdən biri enchaînement (birləşmə) hadisəsidir. Əgər bir söz oxunan samitlə bitirsə və özündən sonra gələn söz sait və ya «H» hərfi ilə bitirsə, onda birinci sözün son samiti ikinci sözün ilk saiti ilə birləşir və onunla bir hecada oxunur. Məs : Ell<u>e e</u>st belle - [ε-<u>le</u>-bel]
Yəni tələffüz zamanı “elle” əvəzliyinin son eşidilən səsi [l] samitidir və ikinci söz “est” – “e” saiti ilə başladığı üçün (l+e) birləşib bir heca təşkil edilir.
une usine - [ü-nü-zin]

Liaison (əlaqə)

Fransız dilinin fonetik hadisələrindən biri də liaison (əlaqə) hadisəsidir. Bir söz oxunmayan (lal) samitlə bitərsə, ondan sonra gələn söz sait və ya "h"-la başlayarsa bu zaman:

1. Oxunmayan samit oxunur və saitlə birləşib bir heca təşkil edir.

lit-il? - [li-til]

2. Liaison zamanı həmişə yeni səs əmələ gəlir:

s, x = z

d = t kimi tələffüz olunur. Məs:

un grand arbre [ön-qran-tarbr]

les amis [le-za-mi]

deux enfants [dö-zan-fan]

Liaison hadisəsində yeni səs əmələ gəlir.

Elə hallar vardır ki, orada **liaison** nəinki edilmir hətta qadağandır. Məs:

1. Əgər mübtəda isimdirsə onda mübtəda ilə xəbər arsında liaison edilmir. Məs:

Les enfants écoutent s+e olmaz.

[le-zan-fan-ekut]

2. "Onze" və "huit" miqdar saylarından sonra liaison edilmir. Məs :

Le onze octobre [lö onz - oktobr]

Le huit octobre [lö üi oktobr]

3. "et" bağlayıcısından sonra:

maison et école [me-zo-ne-ekol]

4. Təyin olunan isim-sifət arasında

... des enfants attentifs [de-zanfan+atan-tif]

Heca bölgüsü

Fransız dilində də azərbaycan dilində olduğu kimi hecalar sözdəki saitlərin sayı qədər olur. Saitlə bitən – açıq, samitlə bitən – qapalı heca adlanır. Məsələn :
ceci /sö-si/ - bu, bunu
ami /a-mi/ - dost
Bu sözlərdəki hecalar saitlə bitir və açıq hecalardır.
facteur /fak-tör/ - poçtalyon
lecture /lek-tür/ - qiraət, oxu
verdure /ver-dür/ -yaşıllıq
Bununla belə fransız dilində heca bölgüsünün özünə məxsus qaydaları var :
1. İki sait arasında bir samit olarsa hecaya bölən zaman bu samit növbəti hecaya aid olur. Məs :
lisez /li-ze/ - oxuyun.
liberté /li-ber-te/ - azadlıq
2. İki sait arasında iki samit olan sözlərdə birinci samit birinci hecada, ikinci samit isə ikinci hecada işlənir. Məs:
fermer /fer-me/ - bağlamaq, örtmək
porter /por-te/ - aparmaq
Qeyd : Əgər iki sait arasında gələn iki samitdən ikincisi « r, b, l, m » olarsa onda hər iki samit ikinci hecaya aid edilir. Məs.
tableau /ta-blo/
écrivez /e-kri-ve/
3. İki sait arasında qoşa samit gələrsə və onlardan
a) bir səs kimi tələffüz edilən samitlər ikinci hecaya aid edilir. Məs :
donner /do-ne/ - vermək
adresser /a-dre-se/ - yığmaq, toplamaq
b) iki səs kimi tələffüz edələn samitlərdən birincisi birinci hecaya, ikincisi isə ikinci hecaya aid edilir. Məs :
illégal /il-le-qal/
immoral /im-mo-ral/ - əxlaqsız

4. İki sait arasında üç samit gələrsə, birinci samit birinci hecaya digər iki samit isə ikinci hecaya aid edilir. Məs:
Qeyd: Lakin əgər bu üç samitdən ikincisi "s" olarsa onda birinci iki samit birinci hecaya, üçüncü isə ikinci hecaya aid olur. Məs:
obstacle /obs-takl/

Fonetika bölməsinə dair çalışmalar

Ex : 14. Choisissez les phrases avec l'enchaînement.
1. Nous sommes dans la cour
2. Vous êtes à la maison
3. Elle est à l'Université
4. Ils se promènent
5. Il a ouvert la porte
6. Il trouve son stylo
7. Je vais au parc
8. Il achète des fleurs
9. Il fait ses exercices
10. Notre école est très grande

Ex : 15. Choisissez les phrases avec la liaison.
1. Ces livres sont intéressant
2. Ces enfants sont intelligents
3. Le texte est difficile
4. Ces arbres sont verts
5. Ses filles sont belles
6. Mes crayons sont rouges
7. Nous allons au cinéma
8. Nous venons de l'école
9. Vos amis sont étudiants
10. Mon cousin reste chez moi

Ex : 16. Choisissez les mots où la lettre « c » se prononce :
a) comme « s » -
b) comme « k » -
merci, chambre, cette, cinéma, cahier, cœur, ciel, facteur, ce, claire, place, cycle, cela, cylindre, complet, couleur, cité, cadet, recteur, céder, classe, camarade, français, leçon, avec, cyclone, chat etc.

Ex : 17. Choisissez les mots où la lettre « g » se prononce :
a) comme « q » -
b) comme « j » -
gare, bouge, glace, germinal, garçon, gomme, neige, gris, beige, grand, rouge, garde, voyage, goutte, grimper, page, longue, gymnastique, cigarette, neige, intelligent, wagon, gâteau, plage etc.

Ex : 17. Choisissez les mots où la lettre « s » se prononce :
a) comme « s » -
b) comme « z » -
salle, teste, rose, singe, maison, costume, chaise, sport, musée, silence, phrase, seul, soleil, lisons, composer, valise, base, suite, sportif, sac, soulier, amuser

Fransız dilinin qrammatikası haqqında qısa məlumat

Fransız dili öz qrammatik quruluşuna görə analitik (şəkilçisiz) dillər qrupuna daxildir. Bu dildə söz sırası sabitdir, hər cümlə üzvünün cümlədə öz konkret yeri vardır. Sözlər arasında qrammatik münasibətlər şəkilçilər olmadığına görə köməkçi sözlərlə həyata keçirilir. Həmin köməkçi sözlər aşağıdakılardır:
1. Artikllər
2. Sözönülər
3. Mənsubiyyət və ya işarə (sifətləri) determinativləri
4. Köməkçi fellər (avoir, être)
5. Köməkçi şəxs əvəzlikləri
6. Köməkçi zərflər və s.

Artikllər

Fransız dilində ismin qarşısında mütləq artikl işlənir. Çünki artikl ismin qrammatik kateqoriyalarının əsas göstəricisidir. Fransız dilində ismin üç qrammatik kateqoriyası var:
1. Cins kateqoriyası (le genre), yəni isimlər kişi və qadın cinsində olur.
2. Kəmiyyət kateqoriyası (le nombre), yəni isimlər tək və cəm olur.
3. Müəyyənlik və qeyri-müəyyənlik kateqoriyası (la détermination et l'indétermination), yəni isimlər müəyyən və ya qeyri-müəyyən olurlar.
Artikl məhz bu üç kateqoriyanın üçünü də ifadə edir. Məs:
un livre – "un" göstərir ki, "livre" isimdir, təkdir, kişi cinsindədir və qeyri-müəyyəndir.
une table – "une" göstərir ki, "table" isimdir, təkdir, qadın cinsindədir və qeyri müəyyəndir.

des livres
des tables
des göstərir ki, "livres" və "tables" sözləri isimdir, cəmdədir və qeyri – müəyyəndirlər.

Və ya
le livre – "le" göstərir ki, "livre" isimdir, təkdir, kişi cinslidir, müəyyəndir.
la table – "la" göstərir ki, "table" isimdir, qadın cinslidir, müəyyəndir.

les livres
les tables
les göstərir ki, "livres" və "tables" sözləri isimdir, cəmdədir və müəyyəndirlər.

Fransız dilində artiklin üç növü vardır:
1. Q/müəyyən artikllər
un – kişi cinsli, tək, q/müəyyən isimlərin qarşısında işlənir.
Məs: un livre – kitab
une – qadın cinsli, tək, q/müəyyən isimlərin qarşısında işlənir.
une table – stol

des – həm qadın, həm də kişi cinsli, cəmdə olan qeyri-müəyyən isimlərin qarşısında işlənir.
des livres – kitablar; des tables – stollar

2. Müəyyən artikllər
le – kişi cinsli, tək, müəyyən isimlərlə işlənir
Məs: le livre – kitab(ı)
la – qadın cinsli, tək, müəyyən isimlərlə işlənir.
la table – stol(u)
les livres – kitablar(ı), des tables – stollar(ı)
Qeyd: Müəyyən artikllərlə işlənən isimlər cümlənin məzmunundan asılı olaraq həm də azərbaycan dilində ismin təsirlik halına uyğun gəlir. Məs:
Il lit un livre – O, kitab oxuyur (hər hansı bir kitab)
Il lit le livre – O, kitabı oxuyur (məlum kitabı)

3. Hissə bildirən artikllər – sayılmayan (maddi, mücərrəd) isimlərlə işlənir.
du – kişi cinsli, təkdə, miqdarı bilinməyən isimlərlə işlənir.
de la – qadın cinsli, təkdə, miqdarı bilinməyən isimlərlə işlənir.
Məs: un pain → du pain (çörəkdən bir hissə, miqdar göstərilmir).

le lait → du lait Il prend du lait – o, süd içir
➢ miqdar yoxdur
le thé → du thé Il prend du café – o kofe içir

la viande → de la viande. Il achète de la viande – O, ət alır. (miqdar yoxdur)

Sözönülər

Fransız dilində köməkçi sözlərdən biri də çox geniş işlənən sözönülərdir. Sözönülər azərbaycan dilində ismin hal şəkilçilərinə və ya ayrı-ayrı sözlərə uyğun gəlir. Məs:
1. **“à”**- azərbaycan dilinə -a, -ə, -ya, -yə (yönlük hal), -da, -də (yerlik hal) şəkilçilərinə uyğun gəlir. Məs: Où vas-tu ? – Sən hara gedirsən ?

- Je vais à la maison – Mən evə gedirəm
Où es-tu ? – Sən haradasan ?
- Je suis à la maison – Mən evdəyəm

2. "de" – azərbaycan dilində -ın, -in, -un, -ün yiyəlik hal, -dan, -dən – çıxışlıq hal şəkilçilərini əvəz edir.
À qui est ce livre ? – Bu kitab kimindir?
- C'est le livre de Nazim – Bu, Nazimin kitabıdır.
D'où viens-tu ? – Sən hardan gəlirsən ?
- Je viens de la maison – Mən evdən gəlirəm.

3. "sous" – "altında" sözünə uyğun gəlir.
Le chat est sous la table. – Pişik stolun altındadır.

4. "sur" "üstündə" sözünə uyğun gəlir.
Le livre est sur la table. – Kitab stolun üstündədir.

5. "pour" – "üçün"
J'achète des fleurs pour ma mère.
Mən anam üçün gül alıram.

6."avec" - « ilə » qoşmasına və ya « -la,-lə » şəkilçilərinə uyğun gəlir.
Je vais au cinéma avec mes amis.
Mən dostlarımla kinoya gedirəm.

7."près de" – "yanında"
La chaise est près de la table.
- Stul stolun yanındadır.

8. "devant" –"qarşısında"
La voiture est devant la maison.
- Avtomobil evin qarşısındadır.

9. "derrière" – "arxasında"
Le jardin est derrière la maison.
- Bağ evin arxasındadır.

10. "sans" isimlərlə - sız[4]
fellərlə - madan, mədən
Məs. sans livre – kitabsız
sans lire – oxumadan

11. "chez" –gilə, -gildə (yalnız şəxslərə aid olur)
Je vais chez mon ami
- Mən dostumgilə gedirəm
Je suis chez mon ami
- Mən dostumgildəyəm.

12. "par"cümlənin məzmunundan asılı olaraq -la, -lə, -dan, - dən, passiv formada isə "tərəfindən" kimi işlənir
Məs: par avion – təyyarə ilə
Par la fenêtre –pəncərədən

Mənsubiyyət və işarə determinativləri (sifətləri)

Mənsubiyyət determinativləri bunlardır:

mənim (öz)	mon - kişi cinsli isimlərlə, təkdə	mon livre – mənim (öz) kitabım
	ma - qadın cinsli isimlərlə, təkdə	ma robe – mənim (öz) paltarım
	mes - hər iki cins, cəmdə	mes livres - mənim (öz) kitablarım
		mes robes – mənim (öz) paltarlarım

sənin (öz)	ton - k/cinsi, tək	ton livre – sənin (öz) kitabın
	ta – q/cinsi, tək	ta robe – sənin (öz) paltarın
	tes – hər iki cins, cəm	tes livres – sənin (öz) kitabların

tes robes – sənin (öz) paltarların

onun (öz)	son – k/cinsi, tək sa – q/cinsi, tək ses – hər iki cins, cəm	son livre – onun (öz) kitabı sa robe – onun (öz) paltarı ses livres – onun (öz) kitabları ses robes – onun (öz) paltarları
bizim (öz)	notre – tək isimlərlə (hər 2 cins) nos – cəm isimlərlə (hər 2 cins)	notre livre – bizim (öz) kitabımız notre robe – bizim (öz) paltarımız nos livres – bizim (öz) kitablarımız nos robes – bizim (öz) paltarlarımız
sizin (öz)	votre – tək isimlərə (hər 2 cins) vos – cəm isimlərlə (hər 2 cins)	votre livre – sizin (öz) kitabınız votre robe – sizin (öz) paltarınız vos livres – sizin (öz) kitablarınız vos robes – sizin (öz) paltarlarınız
Onların (öz)	leur – tək isimlərlə (hər 2 cins) leurs – cəm isimlərlə (hər 2 cins)	leur livre – onların (öz) kitabı leur robe – onların (öz) paltarı leurs livres – onların (öz) kitabları leurs robes – onların (öz) paltarları

Qeyd 1: Bütün mənsubiyyət determinativləri yalnız haqqında danışılan şəxslə aid olan əşya eyni şəxsdə olarsa "öz" kimi tərcümə edilir, şəxslər müxtəlif olarsa "öz" işlənmir.

Məs: Il lit son livre. – O, öz kitabını oxuyur.

Mübtəda və mənsubiyyət əvəzliyi eyni şəxsdədir.

Il lit mon livre –O, mənim kitabımı oxuyur.

Mübtəda və əvəzlik müxtəlif şəxslərdədir.

Ils lisent leurs livres. – Onlar öz kitablarını oxuyurlar.

Ils lisent vos livres. – Onlar sizin kitablarınızı oxur.

Qeyd 2. Qadın cinsli saitlə başlayan isimlərin qarşısında ma, ta, sa əvəzinə mon, ton, son mənsubiyyət əvəzlikləri işlənir:
une école – mon école

İşarə determinativləri (sifətləri)

Fransız dilində işarə sifətləri bunlardır:

Bu	ce	kişi cinsli, təkdə, samitlə başlayan isimlərlə işlənir.	Ce livre - bu kitab
	cet	kişi cinsli, təkdə, sait və ya h hərfi ilə başlayan isimlərlə işlənir.	Cet arbre – bu ağac
	cette	qadın cinsli, təkdə olan isimlərlə işlənir (sözün hansı hərflə başlamasından asılı olmayaraq)	Cette école – bu məktəb Cette herbe – bu ot
	ces	cəmdə qadın və kişi cinsli isimlərin qarşısında işlənir.Məsələn:	

ce livre – ces livres	bu kitab – bu kitablar
cet arbre – ces arbres	bu ağac – bu ağaclar
cet homme – ces hommes	bu adam (kişi) – bu adamlar (bu kişilər)
cette école – ces école	bu məktəb – bu məktəblər
cette salle – ces salles	bu otaq – bu otaqlar
cette herbe – ces herbes	bu ot – bu otlar

Qeyd: Əgər ismin qarşısında mənsubiyyət və ya işarə determinativi işlənirsə, həmin ismin artikli düşür (işlənmir).
Məs: un livre – mon ~~(un)~~ livre, ce ~~(un)~~ livre

Köməkçi fellər (avoir, être)

Fransız dilində « avoir - malik olmaq » və « être – olmaq » felləri köməkçi fel kimi də işlənir və felin mürəkkəb zamanların düzəldilməsində istifadə olunur:

avoir – malik olmaq. (...var).

J'ai – Mən malikəm	ai = am[4]
Tu as – Sən maliksən	as = san[2]
Il (elle) a – O malikdir	a = dır[4]
Nous avons – biz malikik	avons = ıq[4]
Vous avez – siz maliksiniz	avez = sınız[4]
Ils (elles) ont – onlar malikdirlər	ont = dırlar[4]

être – olmaq

Je suis étudiant – Mən tələbəyəm
Tu es étudiant – Sən tələbəsən
Il est étudiant –O, tələbədir
Elle est étudiante – O, tələbədir
Nous sommes étudiants – Biz tələbəyik
Vous êtes étudiants – Siz tələbəsiniz
Ils sont étudiants – Onlar tələbədirlər
Elles sont étudiantes – Onlar tələbədirlər

Göründüyü kimi hər iki fel həm də azərbaycan dilində şəxs şəkilçilərinə uyğun gəlir.

Köməkçi şəxs əvəzlikləri

Fransız dilində şəxs əvəzlikləri iki yerə bölünür:
1. Vurğusuz şəxs əvəzlikləri
2. Vurğulu şəxs əvəzlikləri

Vurğusuz şəxs əvəzlikləri bunlardır:

I Je – mən Nous - biz

II Tu – sən Vous – siz III Il – o(k/c)

Elle – o (q/c) İls (Elles) – onlar

Bu əvəzliklər tək işlənmir, həmişə fellə işlənirlər.

Məs:

Je parle – Mən danışıram	Je = mən – am[4]
Tu parles – Sən danışırsan	Tu = sən – san[2]
Il (elle) parle – Odanışır	Il (elle) = o – dır[4]
Nous parlons – Biz danışırıq	Nous = biz – ıq[4]
Vous parlez – Siz danışırsınız	Vous = siz – sınız[4]
Ils (elles) parlent – Onlar danışırlar	Ils (elles) = onlar – lar[2]

Vurğulu şəxs əvəzlikləri isə bunlardır:

Je = moi = mən	Nous = nous = biz
Tu = toi = sən	Vous = vous = siz
Il = lui = o (k/c)	Ils = eux = onlar (k/c)
Elle = elle = o (q/c)	Elles = elles = onlar (q/c)

Bu misallardan göründüyü kimi şəxs əvəzlikləri cümlədə qoşa rol oynayır: həm mübtədanı, həm də şəxs şəkilçilərini əvəz edirlər. Məhz şəxs şəkilçilərini əvəz etdikləri üçün onlar feldən ayrıla bilmir və köməkçi söz kimi işlənirlər.

Vurğulu şəxs əvəzlikləri isə felsiz, tək, sözünü ilə işlədilir.

Şəxs əvəzlikləri eyni zamanda yenə də 2 qrupa bölünürlər:

1) Mübtədanı əvəz edən

Je, tu, il (elle), nous, vous, ils (elles)

2) Tamamlığı:

a) Vasitəsiz tamamlığı əvəz edən:

me – məni nous - bizi

te – səni
le – onu (k/c)
la – onu (q/c)
vous -sizi
les – onları (hər 2 cins)

b) Vasitəli tamamlığı əvəz edən:

me - mənə
te – sənə
lui –ona
à elle -ona
nous – bizə
vous- sizə
leur - onlara

Köməkçi zərflər

Köməkçi zərflər dedikdə sifətin və zərfin müqayisə dərəcələrini düzəltmək üçün istifadə olunan "aussi", "moins" və "plus" zərfləri nəzərdə tutulur. Məs:
Sifətin müqayisə dərəcəsinin düzəldilməsi
Elle est aussi belle que sa sœur – O da bacısı kimi gözəldir.
Elle est moins belle que sa sœur – O, bacısından az gözəldir.
Elle est plus belle que sa sœur – O, bacısından gözəldir.

Zərfin müqayisə dərəcəsinin düzəldilməsi

Il écrit aussi vite que son ami – O da dostu kimi tez-tez yazır.
Il écrit moins vite que son ami – O dostundan ləng yazır.
Il écrit plus vite que son ami - O dostundan daha tez yazır.

Eləcə də üstünlük dərəcəsində istifadə olunan **le (la, les) plus** və ya **le (la, les) moins** formaları bu köməkçi zərflər sayəsində düzəlir və azərbaycan dilinə ən (çox), ən (az...) kimi tərcümə olunur.

NİTQ HİSSƏLƏRİ
İsim – Le nom

Fransız dilində isimlər:
a) kişi və qadın cinsində (masculin et féminin)
b) tək və cəm (singulier et pluriel) olurlar.
e) müəyyən və qeyri-müəyyən (défini et indéfini) olurlar.

Fransız dilində isimlərin qadın cinsinin düzəldilməsi

Fransız dilində isimlərin qadın cinsini düzəltmək üçün kişi cinsli ismin sonuna "e" hərfini əlavə etmək lazımdır:
un étudiant – tələbə oğlan
une étudiante – tələbə qız
Bəzən kişi cinsli isimlər "e" hərfi ilə bitdiyi üçün yalnız onların qarşısındakı artikl dəyişir.

un camarade – dost, yoldaş (kişi)
une camarade – rəfiqə, yoldaş (qadın)

Bəzən sözün şəkilçisi dəyişir. Məs:
en = enne un musici<u>en</u> – une musici<u>enne</u>
musiqiçi (kişi) musiqiçi (qadın)

on = onne un champi<u>on</u> – une champi<u>onne</u>
çempion (kişi) çempion (qadın)

eur = euse un chant<u>eur</u> – une chant<u>euse</u>
müğənni (kişi) müğənni (qadın)

teur = trice un act<u>eur</u> – une act<u>rice</u>
aktyor (kişi) aktrisa (qadın)

Bəzi isimlərin qadın cinsi xüsusi yolla düzəlir.
un garçon / un fils – une fille
un homme / un mari – une femme
un monsieur – une dame

un copain – une copine
un roi – une reine
un prince – une princesse

Qeyd: Madame, Mademoiselle, Monsieur – sözləri artiklsiz işlənir.

Bəzi isimlərin cinsi onların sonluğunun kişi və qadın cinsli olması ilə seçilir. Məs:

Kişi cinsli şəkilçilər (sonluqlar):

-age – le fromage, le voyage, le visage
(müstəsna: la plage, la cage, la page, la nage, l'image)
- ment–le mouvement, le monument
- eau – le drapeau, le tableau
- phone – le téléphone, le magnétophone
- isme – le réalisme, le socialisme
- eur – le chauffeur, le tailleur, le professeur
- et – le brévet, le cabinet
- ail, - eil – le soleil, le travail,
- er,- ier – le boucher, le pétrolier, le boulanger
- o – le métro

Qadın cinsli şəkilçilər (sonluqlar)

- ée – la rosée, la valée
- tion – la nation, la recréation
- té – la beauté, la faculté
- ure – la nature, la peinture
- erie – la boulangerie
- ille – la famille, la fille
- ette – la violette, la vedette
- ière – la poussière, la carrière

Aşağıdakı isimlər kişi cinslidirlər :
un problème, un système, un programme, un volume, un modèle, un groupe, un domaine, un rôle və s.

Aşağıdakı isimlər qadın cinslidirlər :
la couleur, l'odeur, la saveur, la peur, la douleur, la fleur
Heyvan adları kişi və qadın cinsli olmaqla aşağıdakı kimidir :
le chat – la chatte
le chien – la chienne
le coq – la poule
le bœuf, le taureau – la vache
le tigre – la tigresse
le lion – la lionne
le loup – la louve və s.
Qeyd: La mouche (milçək) və la souris (siçan) tək cinslidir.

İsimlərin cəm formasının düzəldilməsi qaydaları

1. Fransız dilində isimlərin cəm formasını düzəltmək üçün ümumi qaydaya görə təkdə olan ismin sonuna "s" hərfi artlrilir. Bu zaman ismin artikli də cəmdə olur. Məs:
un livre – des livres
le livre – les livres

2. Əgər isim təkdə "s", "x" və ya "z" hərfləri ilə bitərsə cəmdə dəyişmir, yalnız artikl dəyişir. Məs:
un pardessus – des pardessus
un prix – des prix
un nez – des nez

3. Əgər isim təkdə "al" və ya "au" ilə bitərsə cəmdə - aux şəkilçisini qəbul edir.
un journal – des journaux
un drapeau – des drapaux

Müstəsna olan və "s" qəbul edən isimlər:
un carnaval – des carnavals
un festival – des festivals
un bal – des bals

4. Sonu tək halda –eu ilə bitən isimlər cəmdə - eux şəkilçisini qəbul edir.
un cheveu – des cheveux
un jeu – des jeux
Müstəsna: un bleu – des bleus; un pneu – des pneus ilə bitən isim 5. Sonu "ou" ilə bitən isimlər cəmdə "s" şəkilçisi qəbul edir, yerdə qalanlar isimlər isə "x" şəkilçisini qəbul edir. Məs: un trou – des trous
Müstəsna: un bijou – des bijoux, un caillou – des cailloux, un chou – des choux, un genou – des genoux, un hibou – des hiboux

Bəzi isimlərin cəm halı xüsusi yolla düzəlir:
un œil – des yeux
Madame – mesdames, Monsieur - messieurs
Mademoiselle – Mesdemoiselles və s.

Exercices de grammaire

1. Donnez le féminin des noms suivants.

a)

1. un écolier
2. un époux
3. un sot
4. un veuf
5. un employé
6. un cousin
7. un Persan
8. un lion
9. un chat
10. un avocat

b)

1. un vendeur
2. un acteur
3. un maître
4. un hôte
5. un prince
6. un tigre
7. un dentiste
8. un secrétaire
9. un lecteur
10. un menteur

c)

1. un homme
2. un garçon
3. un mari
4. un père
5. un oncle
6. un frère
7. un speaker
8. un héros
9. un neveu
10. un roi
11. un tsar
12. un neveu

2. Donnez le pluriel des noms suivants.

a)

1. un livre
2. un fils
3. un nez
4. une voix
5. un tableau
6. un cheveu
7. un trou
8. un bijou
9. un journal
10. un bal
11. un carnaval
12. un chacal

b)

1. un cheval
2. un lieu
3. un détail
4. un travail
5. un oiseau
6. une voix
7. un métal
8. un morceau
9. un cadeau
10. un mal
11. un prix
12. un chou

Sifət – L'adjectif

Fransız dilində sifətlər aid olduqları isimlərlə cinsə və kəmiyyətə görə uzlaşıirlar.

Sifətlərin qadın cinsinin düzəldilməsi

1. Sifətlərin qadın cinsinin düzəldilməsi eynilə isimlərdə olduğu kimidir. Yəni kişi cinsində olan sifətin sonuna "e" artırılır.
grand – grande; petit – petite; blond – blonde.

2. Sonu “e” ilə bitən kişi cinsli sifətlər qadın cinsində olduğu kimi qalır. jeune, jaune, rouge, facile, difficile etc.

3. Bəzi hallarda son samit qoşalaşır :

en = enne	italien– italienne
on = onne	mignon– mignonne
el = elle	cruel– cruelle

4. Bəzən bütün sonluq dəyişir :

f = ve	attentif– attentive
eux = euse	paresseux– paresseuse
eur = euse	rêveur– rêveuse
teur = trice	calculateur – calculatrice
er = ère	étranger– étrangère

5. Xüsusi hallar :
beau – belle, nouveau – nouvelle, faux – fausse, doux – douce, roux – rousse, jaloux – jalouse, gentil – gentille, vieux – vieille, gros – grosse, bas – basse, fou – folle, long – longue, frais – fraîche, sec – sêche, blanc – blanche, grec – grecque, public – publique

Exercice 1.
Ecrivez le féminin des adjectifs donnés.

1. maladif	11. inquiet
2. curieux	12. national
3. neuf	13. plein
4. actif	14. secret
5. cher	15. habituel
6. léger	16. banal
7. cadet	17. muet
8. formel	18. long
9. pareil	19. blanc
10. ancien	20. sec

Exercice 2.
Ecrivez le féminin des adjectifs donnés.

1. frais
2. franc
3. public
4. sot
5. favori
6. doux
7. roux
8. faux
9. jaloux
10. gentil
11. bas
12. las
13. gros
14. gras
15. épaix
16. beau
17. nouveau
18. vieux
19. fou
20. mou

Sifətlərin cəm formasının düzəldilməsi

1. Ümumi qayda üzrə sifətlərin cəm forması təkdə olan sifətin sonuna "s" şəkilçisini artırmaqla düzəlir.
grand – grands; grande – grandes
petit – petits; petite - petites

2. Əgər təkdə olan sifətin sonu "s" və ya "x" hərfləri ilə bitirsə onda cəmdə dəyişmir.
un pardessus gris – des pardessus gris
un enfant heureux – des enfants heureux

3. Sonu "al" və ya "au" ilə bitən sifətlərin cəmi "aux" lə bitir.
beau – beaux
original – originaux

Müstəsna: banal – banals
fatal – fatals
naval - navals

Qeyd: “al” sonluğu ilə bitən qadın cinsli sifətlər cəmdə “aux” deyil “s” şəkilçisi qəbul edir. Məs:
un journal national - des journaux nationaux
un revue nationale – des revues nationales
Elle est belle – elles sont belles

4. Əgər kişi və qadın cinsli sifətlərin qarışığının cəmu düzələrsə ancaq kişi cinsi götürülür.
Paul, Marie et Marthe sont beaux et bruns.

5. Rəng bildirən sifətlər meyvə adlarından düzəldilibdirsə
marron – şabalıdı, orange – narıncı və s. onlar nə cinsə, nə də kəmiyyətə görə dəyişmir. Məs:
un béret marron; une robe marron; des robes marron
un pull orange; une veste orange; des vestes orange

Fransız dilində sifət aid olduğu isimlə cinsə və kəmiyyətə görə uzlaşır.
un enfant paresseux – des enfants paresseux
une femme sérieuse – des femmes sérieuses

Adətən sifətlər isimdən sonra gəlir
une chemise blanche
un exercice difficile
Lakin elə sifətlər vardır ki, onlar isimdən əvvəl gəlir:
beau, joli, mauvais, petit, grand etc.
3 sifət 3 formada işlənir.
Bu sifətlər aşağıdakılardır:

gözəl
- beau – kişi cinsli, samitlə başlayan isimlərlə işlənir. Un beau livre
- bel – k/c, sait (H). başlayan isimlərlə: un bel ami, un bel homme
- belle – q/c, təkdə olan isimlərlə: une belle femme

qoca (köhnə)	vieux – k/c. tək, samit	un vieux livre
	vieil – k/c. tək, sait (H)	un vieil homme, un vieil ami
	vieille – q/c. tək.	une vieille femme

yeni (təzə)	nouveau – k/c. tək, samitlə başlayan	un nouveau jour
	nouvel – k/c, tək, sait (H)	un nouvel homme
	nouvelle – q/c. tək,	une nouvelle robe

Exercice 1.
Ecrivez le pluriel des adjectifs donnés.

1. beau
2. amical
3. banal
4. natal
5. final
6. glacial
7. fatal
8. oral
9. spécial
10. curieux
11. heureux
12. bleu
13. social
14. dangereux
15. fou

Les degrès de comparaison des adjectifs
Sifətin müqayisə dərəcələri

Sifətin müqayisə dərəcələri eyni köməkçi zərflərlə düzəlir. Bu köməkçi zərflər bunlardır: aussi, moins, plus
Məs:
Elise est aussi belle que sa sœur
Elise est moins belle que sa sœur
Elise est plus belle que sa sœur

Qeyd: “bon” sifəti “plus bon” şəklində işlənmir onu “meilleur” əvəz edir. Məs:

Paul est ~~plus bon~~ meilleur que son frère.
Sifətlərdə üstünlük dərəcəsi vardır ki, bunu düzəltmək üçün le (la, les) + plus
və ya "moins" (yəni ən çox, ən az) dərəcədə
"bon" sifətinin üstünlük dərəcəsi "le meilleur"

"Meilleur" uzlaşır. Məs:
Paul est le meilleur dans le groupe.
Marie est la meilleure dans le groupe.
Nos étudiants sont les meilleurs à la faculté.
Nos jeunes filles sont les meilleures à la faculté.

Fel – le verbe

Fransız dilində fellər 3 qrupa bölünür:
1-ci qrup, 2-ci qrup və 3-cü qrup fellər
Yalnız 2 feldən (aller, envoyer) başqa, sonu məsdərdə "-er" -lə bitən bütün fellər 1-ci qrupa daxildir. Məs: parler, donner, demander və s.
Sonu "-ir"lə bitən fellər 2-ci qrupa daxildir. Məs: finir, choisir, rougir və s.
Müstəsnalar: Venir, tenir, revenir, devenir, ouvrir, offrir, sortir, partir və s. fellər 3-cü qrupa daxildir.
Sonu müxtəlif sonluqlarla:- er,- ir,- re,- oir,- endre,- ondre və s. bitən fellər 3-cü qrupa daxildir.

Felin şəkilləri

Fransız dilində felin 4 şəkli vardır:
1. İndicatif – xəbər şəkli
2. Conditionnel – şərt şəkli
3. Subjonctif – arzu şəkli
4. İmpératif - əmr şəkli

Felin şəkillərinin hər birinin öz zamanları vardır. Məs:
1. İndicatif – hərəkətin reallığını bildirir və aşağıdakı zamanları vardır:
1. Présent de l'indicatif – Xəbər şəklinin indiki zamanı

2. Passé composé de l'indicatif – Xəbər şəklinin mürəkkəb keçmiş zamanı
3. Passé simple de l'indicatif – Xəbər şəklinin sadə keçmiş zamanı
4. Passé récent (immédiat) de l'indicatif – xəbər şəklinin yaxın keçmiş zamanı
5. Plus-que parfait de l'indicatif – xəbər şəklinin keçmişə nisbətən keçmiş zamanı
6. Imparfait de l'indicatif – xəbər şəklinin bitməmiş keçmiş zamanı
7. Passé antérieur de l'indicatif – xəbər şəklinin keçmişə nisbətən keçmiş zamanı
8. Futur simple de l'indicatif – xəbər şəklinin sadə gələcək zamanı
9. Futur proche (immédiat) – xəbər şəklinin yaxın gələcək zamanı
10. Futur antérieur de l'indicatif – xəbər şəklinin gələcəkdə ən əvvəl baş verən hərəkəti bildirən zamanı
11. Futur dans le passé de l'indicatif – xəbər şəklinin keçmişə görə gələcəyi bildirən zamanı

2. Conditionnel - şərt şəkli

Şərt şəkli azərbaycan dilində olduğu kimi hərəkətin icrasının müəyyən şərtdən asılı olduğunu bildirir və aşağıdakı zamanları vardır:
1. Conditionnel présent – şərt şəklinin indiki zamanı
2. Conditionnel passé – şərt şəklinin keçmiş zamanı

3. Subjonctif – arzu şəkli

Arzu şəkli reallıqdan kənar, insan beyninin məhsulu olan yəni, arzu, istək, nifrət, qadağan, qorxu, şübhə və s. kimi insani hisslərin ifadəsini bildirir və aşağıdakı zamanları vardır:
1. Présent du subjonctif – Arzu şəklinin indiki zamanı
2. Passé du subjonctif – Arzu şəklinin keçmiş zamanı
3. Imparfait du subjonctif – Arzu şəklinin bitməmiş keçmiş zamanı
4. Plus-que-parfaît du subjonctif – Arzu şəklinin keçmişə nisbətən keçmiş zamanı

4. Impératif – Əmr şəkli

Əmr şəklinin də iki zamanı vardır:
1. impératif présent – əmr şəklinin indiki zamanı
2. impératif passé - əmr şəklinin keçmiş zamanı

Qeyd etmək lazımdır ki, felin şəkillərinin zamanlarından bəziləri danışıqda işlənmir. Məs: Xəbər şəklinin passé simple, passé antérieur; arzu şəklinin – imparfait, plus-que-parfait, eləcə də əmr şəklinin impératif passé zamanları yazıda və çox nadir hallarda işlənən zamanlardır. Odur ki, bu zamanlardan ən çox işlənən zamanlar haqqında qısa məlumat veriləcəkdir. Yəni həmin zamanın düzəldilməsi və ifadə etdiyi hərəkət haqqında danışılacaqdır, lakin danışıqda işlənməyən bir növ passiv xarakterli zamanlara toxunulmayacaqdır.

Felin xəbər şəklinin ən çox istifadə olunan zamanlarının düzəldilməsi qaydaları

1. Le présent de l'indicatif – Xəbər şəklinin indiki zamanı

Bu zamanı düzəltmək üçün felin hansı qrupa aid olmasını müəyyən etmək lazımdır. Fransız dilində fellər 3 qrupa bölünür: I, II, III qrup felləri

I qrup felləri məsdərdə sonu "er"-lə (maq, mək) bitən fellərdir. Yalnız 2 fel "aller" - getmək və "envoyer" - göndərmək felləri "er" lə bitmələrinə baxmayaraq III qrupa aid edilirlər. Çünki, bu 2 fel I qrup fellərin indiki zamanını düzəltmək üçün mövcud olan konkret qaydaya tabe olmur və tam fərqli təsrif olunurlar.

I qrup fellərin indiki zaman formasını düzəltmək üçün məsdərdəki "er"-sonluğunu atıb felin kökünə aşağıdakı şəkliçiləri artırmaq lazımdır:

	tək	***cəm***
I	-e	-ons
II	-es	-ez
III	-e	-ent

Məs: parl~~er~~ – parl

Je parl+e, tu parl+es, il (elle) parl+e, nous parl+ons, vous parl+ez, ils (elles) parl+ent

Müstəsna fellər:

Aller – getmək

Je vais — Nous allons
Tu vas — Vous allez
Il (elle) va — Ils (elles) vont

Envoyer – göndərmək

J'envoie — Nous envoyons
Tu envoies — Vous envoyez
Il (elle) envoie — Ils (elles) envoient

II qrup fellər məsdərdə -ir sonluğu ilə bitir. Bu fellərin indiki zamanını düzəltmək üçün məsdərdəki ~~-ir~~ sonluğunu atıb felin yerdə qalan hissəsinə aşağıdakı şəkliçiləri artırmaq lazımdır:

	tək	***cəm***
I	-is	-iss+ons
II	-is	-iss+ez
III	-it	- iss+ent

Məs: Fin~~ir~~– fin

Je fin+is
Tu fin+is
Il (elle) fin+it
Nous fin+iss+ons
Vous fin+iss+ez
Ils (elles) fin+iss+ent

III qrup fellərə məsdərdə -er sonluğu ilə (aller, envoyer), -ir (sortir, partir, venir, tenir, devenir, revenir və s.), re (lire, dire, écrire),- oir (voir, devoir, pouvoir, savoir), -ondre (répondre, confondre) və s. sonluqlarla bitən fellər daxildir. Bu fellər üçün ümumi və konkret bir qayda yoxdur. Onların təsrifini yadda saxlamaq lazımdır. Məs :

Faire – etmək	Venir – gəlmək	Pouvoir – bacarmaq
Je fais	Je viens	Je peux
Tu fais	Tu viens	Tu peux
Il (elle) fait	Il (elle) vient	Il (elle) peut
Nous faisons	Nous venons	Nous pouvons
Vous faites	Vous venez	Vous pouvez
Ils (elles) font	Ils (elles) viennent	Ils (elles) peuvent

Exercice 1. Ecrivez au présent les verbes entre parenthèses.

1. Nous (étudier) le français et nous (travailler) beaucoup.
2. Vous(écouter) un disque et elles (discuter)
3. Ils (posséder) une grande maison.
4. Vous (appeler) le chien, je (appeler) les enfants.
5. Tu (chanter) une jolie chanson et je (danser).
6. J'(essuyer) les verres, tu (balayer) la cuisine.

7. Le film ne (ennuyer) pas les spectateurs.
8. Je (grossir) un peu, tu ne (grandir) pas beaucoup.
9. Les couleurs (pâlir) au soleil, les fruits (mûrir).
10. Je (traduire) un roman espagnol.
11. Elle (confondre) les deux mots : mère et mer.
12. Je (mettre) des gants.
13. En ce moment elle (être) malade et elle (souffrir) beaucoup.
14. Nous (descendre) les éscaliers très vite.
15. Aujourd'hui, il (faire) beau à Paris et il (pleuvoir) à Bakou.

2. Futur simple – Sadə gələcək zaman

Fransız dilində sadə gələcək – azərbaycan dilindəki qəti və qeyri-qəti (müzare) gələcək zaman formalarına uyğun gəlir. Bu zamanı düzətmək üçün I və II qrup fellərin bir başa məsdər formalarına aşağıdakı şəkilçiləri əlavə etmək lazımdır.
Tək : I ş – ai, II ş – as, III ş – a
Cəm : I ş – ons, II ş – ez, III ş – ont
Məsələn: **Parler (I qrup)**

Je parler + ai	Mən danışacağam / Mən danışaram
Tu parler + as	Sən danışacaqsan / Sən danışarsan
Il (elle) parler + a	O, danışacaqdır / O, danışar
Nous parler + ons	Biz danışacağıq /Biz danışarıq
Vous parler + ez	Siz danışacaqsınız /Siz danışarsınız
Ils (elles) parler + ont	Onlar danışacaqlar /Onlar danışarlar

Finir (II qrup)
Je finir + ai
Tu finir + as
Il (elle) finir + a
Nous finir + ons
Vous finir + ez
Ils (elles) finir + ont

III qrup fellər üçün konkret bir qayda yoxdur. Məsdərdə sonu -re ilə bitən fellərin sonundakı "e" düşür və felin yerdə qalan kökünə zaman şəkilçiləri artırılır. Məsələn
dir~~e~~ – dir – je dir + ai
lir~~e~~ – lir – je lir + ai
écrir~~e~~ – écrir – j'écrir + ai
prendr~~e~~ – prendr – je prendr + ai və s.

Bəzi fellər kökünü dəyişir və zaman şəkilçiləri bir kökə artırılır. Məs:
Avoir – aur – j'aur + ai
Être – ser – je ser + ai
Savoir – saur – je saur + ai
Venir – viend – je viendr + ai
Aller – ir – j'ir + ai
Envoyer – enverr – j'enverr + ai
Pouvoir – pourr – je pourr + ai

Exercice 2. Ecrivez les verbes entre parenthèses au futur simple.
1. Tu (avoir) de nouveaux amis.
2. Vous (être) contents de faire du sport.
3. Nous (réflechir) à votre proposition.
4. Tu (envoyer) des roses à ton amie.
